**Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin yaradılması, onun Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin 854 saylı Fərmanı**

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin mühafizəsini və həmin nümayəndəliklərdə çalışan işçi heyətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində

Diplomatik Nümayəndəliklərin Mühafizəsi İdarəsi yaradılsın.

2. "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik

Nümayəndəliklərin Mühafizəsi İdarəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik

Nümayəndəliklərin Mühafizəsi İdarəsinin strukturu" təsdiq edilsin (əlavə olunur).

4. "Mühafizəsi zəruri hesab edilən Azərbaycan Respublikasının xarici ölkələrdə və

beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının siyahısı" təsdiq edilsin (əlavə olunur).

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Üç ay müddətində qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana

uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik

Nümayəndəliklərin Mühafizəsi İdarəsinin işçilərinə bu Fərmanın 2-ci hissəsi ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizəsi İdarəsi haqqında Əsasnamə"də nəzərdə tutulan təminatların verilməsini təmin etsin;

5.3. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri 10 aprel 2013-cü il